

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 224 (23.135)

*23 noyabr 2018-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Noyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Aşqabaddakı Müstəqillik Meydanında rəsmi qarşılanma mərasimi olub.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə təkbətək görüşü, daha sonra isə nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun iştirakı ilə Azərbaycan-Türkmənistan sənədlərinin imzalanması mərasimi olub.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov mətbuata birgə bəyanatla çıxış ediblər.

Noyabrın 22-də Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistana rəsmi səfəri noyabrın 22-də başa çatıb.



## 2018-ci ilin yanvar-oktyabr aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada 2018-ci ilin yanvar-oktyabr aylarında 2 milyard 172 milyon 378 min 700 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,1 faiz artaraq 4783 manata yaxın olmuşdur.

* * *

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 827 milyon 648 min 800 manat dəyərində məhsul istehsal edilmişdir. Bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çoxdur.

* * *



Vəsait qoyuluşları çərçivəsində 2018-ci ilin yanvar-oktyabr aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 840 milyon 725 min manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,4 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 775 milyon 690 min manatı və ya 92,3 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2018-ci ilin yanvar-oktyabr aylarında 386 milyon 792 min 300 manatlıq kənd təsərrüfatı



məhsulları istehsal olunmuşdur. Bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,1 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 19926,1 tona, süd istehsalı isə 77230 tona çatmışdır. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 5,2 faiz, süd istehsalı isə 1,3 faiz artmışdır.

* * *

2018-ci ilin yanvar-oktyabr aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 44 milyon 99 min manat olmuşdur ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,9 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 36 milyon 309 min 300 manat təşkil etmiş və bir il öncəyə nisbətdə 2 faiz artmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2018-ci ilin yanvar-oktyabr aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 44 milyon 118 min 500 manat məbləğində kreditlər verilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,7 dəfə çoxdur. Verilmiş kreditlərin 4 milyon 802 min 300 manatı və yaxud 10,9 faizi qısamüddətli, 39 milyon 316 min 200 manatı və ya yaxud 89,1 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 383 növdə məhsul istehsal olunur ki, bunun da 126 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.



1 noyabr 2018-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 79213-ə çatmışdır ki, bunun da 68486-sı və ya 86,5 faizi aktiv hesablardır. 2018-ci ilin yanvar-oktyabr aylarında açılmış 16002 bank hesabının 15826-sı aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 noyabr 2018-ci il tarixə 1272-yə çatmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlən-



məsinə müsbət şərait yaratmış, 2018-ci ilin yanvar-oktyabr aylarında 374 milyon 768 min ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın dəyəri 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq 330 milyon 369 min 200 ABŞ dolları təşkil etmiş, 285 milyon 970 min 400 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

* * *

2018-ci ilin yanvar-sentyabr aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 430 manata çatmışdır ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,6 faiz çoxdur.

* * *

1 oktyabr 2018-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 3359 nəfər artaraq 455 min 288 nəfər olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## 15 mindən artıq sərnişin dəmir yolu nəqliyyatından istifadə edib

Muxtar respublikada dəmir yolu nəqliyyatının inkişafı diqqətdə saxlanılır. Cari ilin oktyabr ayında dəmir yolu nəqliyyatı vasitəsilə ayrı-ayrı tikinti təşkilatlarının ünvanına 26 min 940 ton müxtəlif təyinatlı yük, Ordubad-Şərur və Şərur-Culfa istiqamətlərində hərəkət edən yük-sərnişin qatarları vasitəsilə 15 min 636 sərnişin daşınmışdır.

Ötən dövrdə vaqonlarda və lokomotivlərdə cari təmir işləri görülmüş, Culfa Lokomotiv Deposunda lokomotivlər 5 dəfə texniki baxışdan keçirilmiş, baş və stansiya yollarında təmir işləri aparılmışdır. Payız-qış mövsümündə idarə və strukturlarda fasiləsiz və sabit iş rejiminin təmin olunması məqsədilə qərargah yaradılmış, tədbirlər planı hazırlanmış, istismarda olan lokomotiv və sərnişin vaqonları, maşın-mexanizmlər mütəmadi yoxlanılmış, yanğına qarşı texniki müayinə aparılmış, nöqsanlar aradan qaldırılmışdır.

***"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti***

## Dayanıqlı təbii qaz təminatı diqqətdə saxlanılır

*Muxtar respublikanın yaşayış məntəqələrinin və istehsal sahələrinin dayanıqlı təbii qaz təminatı diqqətdə saxlanılır, bu istiqamətdə ardıcıl tədbirlər görülür.*

Oktyabr ayında 84 əhali və 23 qeyri-əhali abonenti olmaqla, 107 obyekt qazlaşdırılmış, tikinti işləri zamanı 12 min 515 paqonometr qaz xətti çəkilmişdir. Yeraltı yüksək və ortatəzyiqli magistral qaz kəmərlərinin üzərindəki elektrokimyəvi mühafizə qurğularına nəzarət edilmiş, payız-qış mövsümünə hazırlıq tədbirləri görülmüşdür.

Qeyd olunan dövrdə qaz təsərrüfatında istismara yararsız vəziyyətə düşmüş qaz xətlərinin və avadanlıqların müəyyən edilərək yenilənməsi diqqət mərkəzində saxlanılmış, qazın nəqli zamanı meydana çıxan texniki itki normalarının minimal həddə saxlanılması üçün tədbirlər görülmüşdür. Qəza dispetçer xidmətlərinə daxil olmuş 1275 çağırışa vaxtında gedilmiş, problemlər aradan qaldırılaraq təbii qazın nəqli bərpa olunmuşdur.

***"Naxçıvanqaz" İstehsalat Birliyinin mətbuat xidməti***

## Quruculuq tədbirləri rayon mərkəzinin simasına yeni çalarlar qatacaq

Muxtar respublikamızda insanların, o cümlədən gənc ailələrin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərdən Kəngərliyə də pay düşüb. Cari ilin ötən dövrü ərzində də rayonda tikinti-quruculuq, abadlıq işləri davam etdirilir. Bu isə hər bir Kəngərli sakininin qurub-yaratmaq əzmini daha da artırır.

Hazırda rayon mərkəzi Qıvraq qəsəbəsində 3 ünvanda yeni quruculuq tədbirləri həyata keçirilir. Qəsəbədəki böyük bir ərazidə inşa olunan, zirzəmi ilə birlikdə yeddimərtəbəli ictimai yaşayış binası bunun bariz ifadəsidir. İki girişdən ibarət olan bina 48 mənzillidir. Bu, 48 ailənin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına töhfə olacaq. Mənzillərin 22-si iki, 26-sı isə üçotaqlıdır. Zirzəmidə fərdi qazanxana, anbar, gözəllik salonu yerləşəcək. Burada rayonun müxtəlif idarə, müəssisə və təşkilatları üçün 8 iş otağı ayrılacaq. Binanın ətrafında abadlıq-təmir işləri aparılır, yaşıllıq zolağı salınması üçün hazırlıq işləri görülür.

Digər bir quruculuq tədbiri hərbçi ailələri üçün qəsəbədə inşa olunan yaşayış binasıdır. Biri 4, biri 3, 42-si isə 2 otaqlı olan bina 3 giriş və 5 mərtəbədən ibarətdir. İnşaatçılar hazırda beşinci mərtəbənin hörgüsü ilə məşğuldurlar. Hər iki obyektin tikintisini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kəngərli Rayon İdarəsinin inşaatçıları həyata keçirirlər. İdarənin sahə rəisi





Hicran Əliyevin sözlərinə görə, obyektdə hər cür şərait yaradılıb. İnşaat işlərində keyfiyyət amilinə ciddi önəm verilir, əsasən, yerli materiallardan istifadə olunur, texniki təhlükəsizlik diqqət mərkəzində saxlanılır.

İnşaatçılar onlara həvalə olunmuş obyektlərin tikintisini vaxtında başa çatdırmaq üçün səy və bacarıqlarını əsirgəmirlər.

***Xəbərlər şöbəsi***

Turizm

# AĞBULAQ dağ-xizək turizminin də ünvanı olacaq

*Təbiətin dağların qoynuna bənd etdiyi, dəniz səviyyəsindən 2 min metr yüksəklikdə yerləşən Ağbulaq turizm üçün heyrətamiz coğrafi mövqeyi və gözəlliyi olan çox əlverişli kənddir. Bu hündürlüyə birinin tamamından o birinin başlandığı neçə-neçə döngələr keçir, sanki dağların ətəyindən zirvəsinədək olan məsafəni qət edərək çatırsan. Dayandığın yerdən yuxarı baxanda buludlar, sanki əllərini uzatsan, çatar kimi gəlir sənə. Aşağıya baxanda isə bir-birinə kilidləşən girintili-çıxıntılı qayaların göz uzandıqca uzanan, məchul bir sonluqla tamamlanan görüntüsü valeh edir adamı. Yayın yay günündə yuxarıdan dağların zirvəsindəki qarın, aşağıdan yamacların sinəsinə, qayaların köksünə səpələnən gülün-çiçəyin bir-birinə qarışığından yaranan və heç bir yerdə hiss etmədiyin sərin meh, xoş rayihə ilə nəfəs alırsan. Nəfəs aldıqca da, heç olmasa, ildə bircə dəfə 10-20 gün bu gözəlliklərin əhatəsində yaşamağa haqqın olduğunu dərk edirsən. Burada nəinki 10-20 gün, bir neçə ay, daha doğrusu, arzuladığı qədər qalmaq istəyənlər üçün heç bir problem yoxdur. Çünki Ağbulaqda təbiətin yaratdığı gözəlliklərə insan əlləri ilə qatılan digər bir gözəllik də var. Bu, Ağbulaq İstirahət Mərkəzidir.*



2013-cü ildə istifadəyə verilən istirahət mərkəzi kənddə həmin ildən turizmin inkişafına şərait yaradıb. Mərkəz 3 yaşayış korpusundan və yeməkxana binasından ibarətdir. İkimərtəbəli və 56 yerlik korpuslarda, ümumilikdə, 38 otaq mövcuddur. Otaqlarda istirahət üçün hər cür şərait yaradılıb, havalandırma sistemləri quraşdırılıb və sürətli internetlə təchiz edilib. İstirahət mərkəzində kənd məhsullarının satışı mağazası da vardır ki, burada turistlərə ekoloji cəhətdən sağlam və yüksəkkeyfiyyətli məhsullar təklif olunur. Kompleksin ərazisinə 2 kilometr məsafədən uzunömürlülüyün sirrini gözyaşı kimi şəffaf sularına hopduran büllur bulaqlardan su xətti də çəkilib.

İllərdir ki, yayın istisindən yayınmaq, yazın-payızın gözəlliyini duymaq istəyən yüzlərlə turist axışır bu gözəl məkana. Və onların hər biri buradan evlərinə unudulmaz təəssüratla, yenidən bu doyumsuz təbiəti görmək arzusu ilə qayıdırlar.

Ağbulaq kəndinin turizm potensialını yüksək qiymətləndirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov mərkəzin açılış mərasimində deyib: ***“Ağbulaq kəndində istirahət mərkəzinin yaradılması təsadüfi deyil. Hələ keçmiş Sovetlər Birliyi dövründə bu kənddə məktəblilərin yay düşərgələri təşkil olunurdu. Bu, o dövrdə həyata keçirilən mühüm tədbirlərdən biri idi. Bu gün müstəqil Azərbaycanda da xidmət sahələrinin inkişafına, yeni istirahət komplekslərinin tikilməsinə və turizm infrastrukturunun təkmilləşdirilməsinə xüsusi diqqət yetirilir. Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi yolun dövlət başçısı tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycanda hərtərəfli sosial-iqtisadi inkişafa nail olunmuş, sabitlik təmin edilmişdir. Bütün bunlar ölkəmizdə yay və qış turizminin inkişafını daha da sürətləndirir. Ağbulaq İstirahət Mərkəzində də yay və qış turizminin inkişafı üçün əlverişli şərait vardır”.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən “2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı”na uyğun olaraq əlverişli təbii-coğrafi şəraitə malik olan Ağbulaqda kənd və dağ-xizək turizminin inkişafı üçün kompleks işlər görülür. Bu ilin iyul ayının 17-də burada Ali Məclis Sədrinin iştirakı ilə Xizək Mərkəzinin təməlatma tədbiri olub.



Bu günlərdə Xizək Mərkəzində görülən işlərlə tanış olmaq məqsədilə kəndə üz tutduq. Ağbulağa çatmamış onunla eyni istiqamətdə yerləşən Kolanı kəndinin bir səmtindən yaradılan Xizək Mərkəzinin aydın görüntüsünü müşahidə etdik. Yerdən dağların zirvəsində olanları gördükdə bu qənaətə gəldik ki, mərkəz istifadəyə veriləndən sonra Kolanıya oradan doyumsuz bir mənzərə açılacaqdır. Ağbulağa çatanda isə, sözün həqiqi mənasında, gözlərimizə inanmadıq. Kənddə onsuz da böyük quruculuq işləri aparılıb, yol infrastrukturu tamamilə yenidən qurulub, 2013-cü ildə burada yeni sosial obyektlər istifadəyə verilib. Turizm inkişaf etdirilən kənddə son iki ildə bütün evlərin çardaq hissəsi yenilənib, həyətlərə hasarlar çəkilib. Sıx, hündür ağacların arasından ancaq görünən rəngarəng boyalı evlərin, həm də rəngarəng dam örtükləri, yol kənarlarındakı evlərin yaraşıqlı hasarları buraya əsl turizm məkanı ab-havası bəxş edir, baxdıqca baxmaq istədiyin bir gözəllik yaradır. İstirahət mərkəzinə çatdıqda isə buradan bir qədər aralıda indiyədək torpağın üzərində gördüyümüz tikinti meydançası ilə bu dəfə dağların sinəsində – zirvəsindən bir az aşağıda qarşılaşdıq. İnşaatçıların bu qocaman dağların bağrını yarıb yüzlərlə metr hündürlükdən layihəyə əsasən ümumi uzunluğu 1500, eni isə 30 metr olması nəzərdə tutulan üzüaşağı xizək enişi yaratmaları, bunun üçün maşın və texnikaların dağların sinəsində hərəkəti, xizək yolunu hamarlamaları, yolun sağ və sol hissələrində su axarları düzəltmək üçün buraya qum, beton qarışığı daşımaları kənardan baxanlarda belə bir təəssürat yaradır: İnsan zəkası, insan əlləri nələrə qadirmiş.






Mərkəzin əsas infrastrukturu kanat yoludur. 952 metr uzunluqda kanatın başlanğıc və son dayanacaq yeri arasındakı hündürlük fərqi 267 metr olacaqdır. Kanat yolunda hər biri 4 yerlik olmaqla, 58 oturacaq quraşdırılacaqdır ki, bu da saatda 1000-dən artıq insana xidmət etməyə imkan verəcəkdir. Əyləncə və uşaq parklarında, eləcə də başlanğıc sahədə 231 metrlik konveyer xətləri çəkiləcəkdir. Burada xizəksürmə məktəbi, əyləncə və uşaq parkları yaradılacaq, süni qaryaratma sistemləri qurulacaqdır. Mərkəzin lazım olan qar örtüyünü təmin etmək üçün 26 sabit və 2 hərəkətli süni qaryaratma sistemi qurulacaqdır. Həmçinin ərazidə turistlərin istirahəti üçün də şərait yaradılacaq, xidmət sahələri istifadəyə veriləcəkdir. Layihə ilə tanış olarkən və bunun çox sürətlə reallaşmağa doğru getdiyini görərkən adam özünü nağıllar aləmində hiss edir.

Çoxlarımız istirahət deyiləndə nədənsə yay fəslini düşünürük. Lakin bəziləri öz istirahətlərini ancaq qış fəslində təsəvvür edə bilirlər. Təbii ki, bu seçim insanların zövqündən daha çox asılıdır. Yaşıllığı, gülü-çiçəyi sevənlər kimi, göz baxdıqca uzanan gözqamaşdırıcı qar örtüyünün vurğunu olanlar da az deyil.

Ağbulaqda – bütün fəsillərin gözəli və bütün zövqlərin məkanında qış turizmi üçün yaradılanları gözlərimizlə gördük. Deməli, yüksək səviyyəli turizm infrastrukturu yaradılan bu kənd öz əsrarəngiz qoynunu yay istirahəti üçün insanlara açdığı kimi, yaxın zamanda muxtar respublikamızda dağ-xizək turizminin də yeganə ünvanı olacaq. Bu ünvanda yayda istirahət edənlərdə buraların qışını, qışda istirahət edənlərdə isə yayını görmək arzusunun yaranacağı da şübhəsizdir. Bütün bunlar isə Ağbulaq İstirahət Mərkəzinə turist axınını bu gündən şərtləndirən amillərdir. Qoy gəlsinlər, görsünlər: Ulu Yaradanın Naxçıvana bəxş etdiyi füsunkar təbiəti, yüzilliklərə söykənən adət-ənənələrimizi, milli dəyərlərimizi, bənzərsiz mətbəximizi.

✍ **Mətanət MƏMMƏDOVA**

## Naxçıvan şəhərində içməli su təminatı öz həllini tapıb

*Muxtar respublikamız uğurla inkişaf edir, bütün yaşayış məntəqələrində məqsədyönlü infrastruktur layihələrinin həyata keçirilməsi əhalinin həyat tərzində öz əksini tapır. Belə layihələr meliorasiya və su təsərrüfatı sistemini də əhatə edib. Bunun ifadəsidir ki, son illər içməli su təminatının yaxşılaşdırılması məqsədilə kompleks tədbirlər görülüb, yeni içməli su xətləri çəkilib, kaptajlar bərpa olunub.*

Naxçıvan şəhərinin içməli su və kanalizasiya sistemləri ötən əsrin 60-70-ci illərində o dövrün tələblərinə uyğun qurulan, uzun müddət istismar olunduğundan şəhəri tam əhatə etməməklə yanaşı, artıq yararsız vəziyyətə düşmüş və əhalinin keyfiyyətli içməli suya olan mövcud tələbatını ödəmirdi. Bəzi məhəllələrdə sakinlər ancaq küçələrdəki su kranlarından istifadə edirdi. Əhaliyə su müəyyən saatlarla verilir, yüksək mərtəbəli evlərə içməli su öz axını ilə qalxmırdı. Əhali tərəfindən binanın çardaq hissəsinə kustar yolla düzəldilmiş su çənləri qoyulur və ayrı-ayrı şəxslərə məxsus nasoslar vasitəsilə mənzillərə su vurulurdu. Bəzən su çənlərinin sıradan çıxması suyun daşmasına, yuxarı mərtəbədə yaşayan insanların mənzillərinin yararsız vəziyyətə düşməsinə səbəb olurdu.

Kanalizasiya quyularında da vəziyyət ürəkaçan deyildi. Çirkab suları təmizlənmədən Araz çayına və ya sahələrə axıdılırdı. Bu da insan sağlamlığına və ekologiyaya mənfi təsir göstərirdi.



Naxçıvan şəhəri və ətraf kəndlərdə əhalinin keyfiyyətli içməli su ilə təmin edilməsi, kanalizasiya sistemlərinin müasir standartlar səviyyəsində yenidən qurulması istiqamətində reallaşdırılan layihələr artıq başa çatıb.

“Naxçıvan Şəhər Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı” layihəsi çərçivəsində inşa edilən Şəhər Su Anbarı və Su Təmizləyici Qurğular Kompleksi əhalinin içməli suya olan ehtiyacını tam şəkildə ödəyir. Naxçıvançay yatağında uzunluğu 2,9 kilometr, dərinliyi isə 6 metr olan kaptaj tikilib. Əhalini keyfiyyətli su ilə təmin etmək üçün gün ərzində 40 min 800 kubmetr və ya saniyədə 472 litr sutəmizləmə gücünə malik olan nanofiltrli membrantipli su təmizləyici qurğunun, əhaliyə suyun fasiləsiz çatdırılması üçün ümumi tutumu 25 min kubmetr olan su anbarının tikintisi həyata keçirilib. Naxçıvan şəhəri və Naxçıvan şəhər inzibati ərazisinə aid olan 5 kənd (Qaraçuq, Bulqan, Qaraxanbəyli, Hacıniyyət və Tumbul), həmçinin layihədən qənaət olunmuş vəsait hesabına Babək rayonunun Şıxmahmud, Xəlilli və Şəkərabad kəndləri daxil olmaqla, müxtəlif diametrli borularla 350,1 kilometr daxili su şəbəkəsi, 332,5 kilometr kanalizasiya şəbəkəsi çəkilib və 25874 ev birləşməsi aparılaraq sayğac quraşdırılıb. 135 min nəfər su və kanalizasiya şəbəkəsindən istifadə etmək imkanı qazanıb. Yerin relyefi nəzərə alınaraq şəbəkə üzərində 2 ədəd təzyiqazaldıcı tikilib.

Çirkab sularının təmizlənmədən çaylara axıdılmasının, ətraf mühitin sağlamlaşdırılmasının və çirklənməsinin qarşısının alınması məqsədilə belə suların təmizlənməsi və kənd təsərrüfatında istifadəsi üçün Araz çayının kənarında Naxçıvan Şəhər Təmizləyici Qurğular Kompleksi tikilib. Təmizləyici qurğu gün ərzində 32 min kubmetr və ya saniyədə 370 litr çirkab sutəmizləmə gücünə malikdir. Qurğu 3 mərhələli təmizləmə sistemindən ibarətdir. Kompleksdə təmizləmə prosesi fiziki, bioloji və membran təmizləmə üsulları ilə aparılır. Ətrafa qoxunun yayılmaması üçün kompleksdə 3 havatəmizləyici qurğu quraşdırılıb. Qurğudan çıxan bərk tullantılar xüsusi aparatlarda emal olunaraq gübrə kimi istifadə edilir. Membrandan çıxan təmiz su ilə suvarma mövsümündə öz axını ilə 170, nasoslar vasitəsilə 330 hektar sahəni suvarma suyu ilə təmin etmək olur. Layihənin icrasında yeni texnologiyalardan və avadanlıqlardan istifadə edilib, tikinti işləri aparılarkən keyfiyyət amilinə xüsusi diqqət yetirilib.

Bu işlərin həyata keçirilməsi nəticəsində Naxçıvan şəhər əhalisinin Beynəlxalq Səhiyyə Təşkilatının standartlarına cavab verən təmiz su ilə 24 saat təmin edilməsinə nail olunub.

Su müqəddəsdir, su sağlamlıqdır, su təmizlikdir, su xilasedicidir. Buna görə də hər birimiz bütün sərvətlərimizi qoruduğumuz kimi, suyun da qədrini bilməli, su ehtiyatlarından səmərəli, qənaətlə istifadə etməli, su mənbələrinin çirklənmədən etibarlı mühafizəsinə çalışmalıyıq.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

## Yeni meyvə bağı salınır

AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutu Ordubad rayonunun Kotam kəndi ərazisində yeni meyvə bağı salır. 1 hektar ərazidə salınan nümunəvi bağda, əsasən, yerli torpaq və iqlim xüsusiyyətlərinə uyğun meyvə sortları əkilir. Əkiləcək ərazilərdə əvvəlcədən hazırlıq işləri aparılıb, arxlar çəkilib və sahə çəpərlənib. Bu meyvə bağının salınması həm də “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın icrası istiqamətində həyata keçirilən tədbirlərə öz töhfəsini verəcək.



Qeyd edək ki, bağın salınması işi Ümumdünya Təbiəti Mühafizə Fondunun dəstəklədiyi “Qafqazda bəbir və onun qida obyektlərinin monitorinqi” layihəsi çərçivəsində aparılır.

**Xəbərlər şöbəsi**

*Jurnalistin qeydləri*

# El malının əmanət edildiyi peşə sahibləri
## *və ya “peyğəmbər sənəti” haqqında bir neçə söz*

*İndiyədək qəzetimizin müxtəlif saylarında bu və ya digər sadə peşə sahibləri haqqında bir sıra yazılar dərc olunub. Bu yazıda isə indiyədək tanıdığımız, bildiyimiz peşələrin ən qədimindən bəhs edəcəyik. Söhbət insanoğlunun ilk əmək fəaliyyəti sahələrindən olan çoban peşəsindən gedir.*

Mənbələrə görə, bu peşə əkinçilik və heyvandarlığın inkişafı ilə bağlı yaranıb. Məlumatı olmayanlar bu peşəni asan, sadə, hətta bəziləri işi-gücü olmayanların məşğuliyyəti kimi qəbul edə bilərlər. Ancaq hər peşənin bir yaranma zərurəti və incəlikləri var. Çobanlığın da həmçinin. Bu yaxınlarda Qazma mağarasına yolçuluqda mənə bələdçilik edən çoban yoldaşımla etdiyimiz söhbətlərin sonunda gəldiyim qənaət də bunu təsdiq etdi ki, çobanlıq hər kəsin bacaracağı iş deyil. Çünki digər sahələr kimi, bu peşənin də özünəməxsus xüsusiyyətləri və qaydaları var. Elə biz də bu xüsusiyyətləri işin peşəkarından öyrənməyə çalışdıq. Həmsöhbətimi oxuculara belə təqdim etməyimə onunla etdiyim söhbətdən sonra qərar vermişdim və bu qərarımda da yanılmadığımı düşünürəm. Çünki peşəkarlıq yaşla ölçülmür, peşəyə bağlılıqdan, bu yolda yaşanıb keçilmiş çətinliklərdən və qazanılmış təcrübələrdən əldə edilir. Və beləliklə, ötən yazımızda da söz verdiyimiz kimi, söhbətimizi Kəngərli rayonunun Qarabağlar kəndindən olan Dadaş Dünyamalıyevlə çobanlar oylağı Şəmdində, necə deyərlər, iş başında davam etdiririk...

...Axşamdır. Havanın qaralmasından 3 saata yaxın vaxt keçib. Artıq 600 başdan çox olan sürü – çobanlar buna “ağır sürü” deyirlər – arxaca salınıb. Bu böyük əmanətin vəfalı keşikçiləri olan çoban itləri isə ətrafı gözətləyir. İlin bu fəslində Şəmdinin soyuq havasından qorunmaq üçün çatdığımız ocağın başında kəklikotulu çay içə-içə etdiyimiz söhbət indi mənim üçün bir nağıl kimi görünsə də, çoban Dadaşın danışdıqları real həyatda qazandığı təcrübəyə əsaslanırdı. Bu peşə haqqında söhbətə başlamağımız ondan qaynaqlanırdı ki, ötən yazıda da vurğuladığımız kimi, biz Qarabağlardan Şəmdinə atla getmişdik. Yolboyu bələdçi yoldaşımın təbiətlə, daim əhatəsində olduğu heyvanlarla, qarşılaşdığı maraqlı hadisələrlə bağlı etdiyi söhbətlər məni istər-istəməz bu “peyğəmbər sənəti” haqqında daha çox məlumat almağa sövq edirdi. O söhbət etdikcə bir daha anlayırdım ki, istənilən peşənin sahibi olmaq üçün həmin peşəni sevmək azdır, o sahənin vurğunu olmalısan.

... Biz orada qalmışdıq ki, obaya çatanda bu yazımızın əsas qəhrəmanı olan çoban yoldaşımız mindiyimiz hər iki atın yəhərini açmağa başladı. Və bu işi görərkən də mənə danışırdı ki, havanın soyuq olmasına baxmayaraq, atlar uzaq yol gedəndə tərləyirlər, buna görə də, əslində, yəhəri açmaq düzgün sayılmır, çünki yəhərin alt hissəsi keçə parça olduğundan heyvana tez soyuq dəyə bilər. Ancaq at yorularkən, bəzən yerə uzanıb bədənini sağa-sola hərəkət etdirir. Bu zaman isə yəhərin qırılma ehtimalı çoxdur. Ona görə də yəhəri çıxaran kimi atın üzərinə əvvəlcədən hazırladığı bükülmüş adyalları sərir. Sonra isə onları bir kənara çəkib bağladığı iplərin mıxını yerə vuraraq yenidən yanımıza gəlir.

Burada bir haşiyə çıxaraq bildirim ki, biz Qazmaya gedən günün axşamı, gec saatlarda olsa belə, çoban Dadaşın sürünün yanında qalan yoldaşı ilə geriyə qayıtmağı düşünürdük. Hətta bu haqda onun özünə də – bir halda ki, atımız və fənərimiz var, demək ki, qayıda bilərik, – demişdim. O isə cavabında bildirmişdi ki, qayıtmaq üçün bir şey çatışmır. Nə? – deyə soruşduğumda: ay işığı, – deyə cavab vermişdi. Necə yəni ay işığı? Dedim axı üstümüzdə fənərimiz var. O zaman çoban dostum mənə anlatmışdı ki, ay işığı olmadan bu yollarda atla getmək mümkün deyil. Çünki belə qaranlıq havada düzəngah yerdən fərqli olaraq ya atlar getməyəcək, ya da ətrafdakı kol-kosdan ehtiyat edib ürkərək



səni yıxacaq. Bəs nə edək, bəlkə, heç bu gecə ay görünmədi, onda necə olacaq? – sualıma həmsöhbətim belə cavab vermişdi: – Ay mütləq çıxacaq, çən, çiskin olsa belə, çıxacaq, ancaq bu, gecə saatlarında baş verəcək, havanın da dəyişkən olduğunu nəzərə alsaq, təxminən, saat 2-3 arası. Doğrusu, bu vaxtadək heç zaman ayın gecənin hansı saatlarında səmanı işıqlandırdığının fərqində olmamışdım. Yəni bunun üçün bir zərurət də yaranmamışdı. Ancaq onun qətiyyətlə dediyi bu sözlərini gecənin bir vaxtı – təxminən, 4-ün yarısı itlərin hürüşməsindən ayıldığımız zaman özlüyümdə bir daha təsdiq etdim.

Bələdçi yoldaşım ardınca onu da bildirir ki, bayaqdan bura çən-duman idi. İndi yoxdur. Çünki bura yüksəklikdir, çən-duman isə hər zaman aşağıya doğru hərəkət edir. Dəfələrlə şahidi olmuşam ki, payız fəslində çox zaman Şəmdində, Susuzda hava çox aydın olur, hətta bəzən gündüz vaxtları Günəşin şüaları ətrafa yayılır, 3-4 kilometr yaxınlıqda yerləşən Tənənəm kəndində isə günün böyük bir hissəsində çən əlindən göz-gözü görmür. İndi Qazma dərəsində də çəndir. Ancaq səhər açılandan sonra çəkiləcək. Niyə məhz səhər açılanda? – deyə təəccüblə yanan ocağın alovundan sifəti işıqlanan müsahibimin üzünə baxıram. Havanın isti və yaxud soyuq olmasından asılı olmayaraq, hər gün səhər saat 5-6 arası sübh yeli əsir. Bu yel dağların, çöldüzəndə bitən ot-alafın qoxusunu, təbiətin gümrahlığını özü ilə gətirir. Həmin vaxt sürüdəki heyvanların hamısı burunlarını həmin yelə tərəf tuturlar. Dan yeri ağaranda isə o yel də yox olub gedir. Buna görə də el arasında hər zaman deyirlər ki, hava səhərə yaxın soyuq olur. Məhz elə həmin yelin sayəsində ətrafdakı sis-duman da çəkilib yox olur. Sübh yeli zəif olduqda isə çən nisbətən gec çəkilir.

Çoban Dadaşdan ilin bu fəslində niyə sürünü kəndə aparmadığını soruşuram. Deyir ki, bu il Şəmdində ot boldur. Qar yağmasa, dekabrın sonunadək sürünü burada yaxşıca bəsləyə bilər. Bəs təkbaşına, qoyun-quzu ilə ilin bu vədəsində çöldə qalmağın çətinliyi səni qorxutmur? – deyə növbəti sualımı verirəm. Bildirir ki, bu çətinliklərdən qorxsaydım, burada olmazdım ki. Çoban var ki, işi bir az çətinə düşən kimi başlayır gileylənməyə. Mən isə bu peşəni, sözün həqiqi mənasında sevirəm. İndiyədək başqa bir sahədə işləməyi ağlımın ucundan da keçirməmişəm. Məsələn, bənnalıq mənlik deyil, sürücülükdən ehtiyat edirəm, əkinçilik isə mənə yorucu gəlir. Həftədə bir dəfə kəndə gedirəm, sonra yenidən bura qayıdıram. Bəlkə də, çoxları inanmaz, amma, həqiqətən, bu dağdaş üçün darıxıram. Bax gün ərzində, bəlkə də, 10, 15 kilometr, bəzən daha çox yol qət edirəm, ancaq yorulmuram, enerjim tükənmir. Yəqin ki, bunda vərdişetmənin də təsiri var. Gün ərzində 3 saatdan artıq yata bilmirəm, elə öyrəşmişəm. Ancaq yuxusuzluqdan da şikayətim yoxdur. Bəzən elə olur ki, o 3 saatlıq yuxunu da yata bilmirəm. Bir səs olan kimi tez ayılıram, yəni çox ayıq yatıram.

Yəqin canavarlardan ehtiyat edirsən? – deyə soruşuram. Hə, elədir, bu il canavar daha çoxdur. Ancaq, şükürlər olsun, bu dostlarım (əli ilə sürünün ətrafında üç iti göstərir) canavarların qənimidir. Ocaqdakı odun alovu sönməsin deyə, növbəti odunu alovun üstünə qoyan həmsöhbətim deyir ki, canavar hər zaman sürüyə arxadan hücum edir. Çünki qurd ön tərəfdən fərqli olaraq, arxadan tutduğu heyvanı daha asanlıqla qaçıra bilir. Canavar hər zaman sürüyə hücum etməzdən əvvəl onu diqqətlə izləyir, çobanın, itlərin hansı məsafədə olduğunu, necə deyərlər, götür-qoy edir, sürüyə heç bir zaman da təkbaşına hücum etmir. Yalnız yalquzaq canavarlar təkbaşına sürüyə girişə bilir. Bilirsiniz də, bu heyvanların yaradılışdan elə bir xüsusiyyəti var ki, heç zaman öz aralarında yaşlı, xəstə birisi olduğunu qəbul etmirlər, çox zaman özləri onu parçalayıb məhv edirlər. O zaman belə qurdlar sürüdən ayrılıb təkbaşına yaşamağa məcbur olurlar. Buna görə də yalquzaqların nə vaxt, hansı səmtdən sürüyə hücum edəcəyi bəlli olmaz.

Bəs canavarlar atlara necə, hücum edə bilirlər? – deyə soruşuram. Həmsöhbətim bildirir ki, tək canavar heç vaxt ata yaxın düşə bilmir, hər halda ehtiyat edir ondan. Ancaq sayları bir neçə olduqda nə isə zərər verə bilər. Hə, bir də onu deyim ki, at bağlı olduğu zaman da canavar ona yaxın düşə bilmir. Çünki o, arxa ayaqları ilə özünü qorumağı bacarır və atların ayaq zərbələri çox güclü olur. Buna görə də canavarlar belə vəziyyətdə ata yaxınlaşmağa ehtiyat edirlər. Çoban Dadaş onu da deyir ki, çox zaman canavarlar sürüyə girişmək üçün hiyləgər taktika da seçirlər. Məsələn, onlardan bir neçəsi çoban itləri ilə mübarizə apararkən digərləri sürünün bir hissəsinin səmtini dəyişirlər, yəni sürü iki hissəyə bölünür və belə vəziyyətdən istifadə edib onlara hücum edirlər. Ona görə də çoban gərək belə vəziyyətlərdə özünü soyuqqanlı aparsın, təşvişə düşməsin. Baxın, sizə bir şey də deyim, bütün heyvanların hissetmə qabiliyyəti insanların hissiyyatından daha güclüdür. Məsələn, heyvanlar yaxınlaşan təhlükəni insanlardan daha tez duya bilirlər. Uca Yaradan heyvanlara təfəkkür yerinə güclü hissetmə qabiliyyəti verib. Məsələn, indi gecənin bu qaranlığında sürüdən 100-150 metr aralıda olan bir təhlükəni biz görə və ya hiss edə bilmirik. Ancaq at və ya it olsun, bunu bizdən tez duyur və görür. Ona görə də biz çobanlar bəzən gecə yatan zaman belə bir üsuldan istifadə edirik. Sürüdən hər hansı bir heyvanın boynuna bağladığımız 3-4 metr uzunluğunda ipi dirsəkdən aşağı öz qolumuza dolayırıq. Əgər təhlükə olarsa, həmin heyvan hərəkət edib digərləri ilə birlikdə qaçmağa cəhd edəcək. O zaman ip tərpənəcək və çobanı oyadacaq. Həmin ipi heyvanın boynuna ağacdan “X” şəklində düzəldilmiş fiqurla birlikdə bağlayırıq ki, dartıldığı zaman onu boğmasın.

...Çobanla söhbətimiz xeyli çəkir. Bu peşənin çətinliklərindən, məsuliyyətindən uzun-uzadı danışırıq, heyvan xəstələndikdə, yaralandıqda və ya döl mövsümündə çobanın ilk yardım kimi təcrübəsindən tutmuş, süd sağımı, qırxım, kəsim və digər bacarıqları mənimsəməsinə kimi müxtəlif mövzulardan da bəhs edirik. Mənim üçün maraqlı məqama da toxunuruq. Haşiyə çıxaraq deyim ki, ustad Mirzə Cəlilin “Anamın kitabı” əsərini dəfələrlə oxumuşam. Bu əsərdəki Gülbaharın və çobanların söhbətini xatırlayırsınızmı?

Düşünürəm ki, böyük bir sürüdəki heyvanların adlarını yadda saxlamaq, onları tanımaq, bəlkə də, ən böyük qabiliyyət sayıla bilər...

Fikrimdən keçənləri Dadaşa deyirəm. Gülür və cavab verir:

– Bu da əsl çobanlara verilən bir bacarıqdır. Elə çoban var ki, sürüdəki 10-15 heyvana ad verib. Eləsi də var ki, siz dediyiniz çoban kimi. Burada təəccüblü bir şey görmürəm. Çünki çoban bütün günü ona əmanət olunmuş heyvanların yanındadır. Uzaqdan barmağınla göstərdiyin heyvanı ona qoyduğu adla çağıra bilər.

Dadaşdan heyvanlara verdikləri adların bir məna kəsb etdiyini soruşmaq istəsəm də, buna ehtiyac qalmır. Bunu da izah edir: Kəraqulaq, Ağzıqara, Ala-bula, Çərdəymiş...

Müsahibim bir daha bildirir ki, çobanlıq çox məsuliyyətli peşədir. Təsəvvür elə, sənə el malını əmanət edirlər və bu əmanət, hər şeydən əvvəl, canlıdır, onları qorumaq sənin peşə borcundur. Bəlkə də, başqa bir peşədə səhvlik etsən, bir az zəhmətdən sonra bu səhvini düzəldə bilərsən. Ancaq bizim peşədə bu, mümkünsüzdür. Bu mənada, çobanlıq həm də müqəddəs peşədir.

Yer üzünə gəlmiş peyğəmbərlərin bir çoxu da məhz çobanlıq etməklə ailəsinin dolanışığını təmin edib. Məsələn, Həzrəti Saleh dəvə otarmaqla, onların südünü satmaqla dolanıb. Həzrəti İshaq və Həzrəti Yaqub ömürləri boyunca çobanlıq ediblər. Həzrəti Musa da çobanlıq edərək Həzrəti Şueyb Peyğəmbərin qoyunlarını otarıb. Həzrəti İsa ovçuluq etsə də, bəzi mənbələrdə onun da çobanlıq etdiyi qeyd olunur. Nəhayət, Yer üzünün sonuncu Peyğəmbəri Məhəmməd (s.ə.s.) də kiçik yaşlarından çobanlıq edib, sonradan ticarətlə məşğul olub. Bu baxımdan çobanlıq, həm də “peyğəmbər sənəti” sayılır. Biz isə bu yazıda bu müqəddəs sənət haqqında söhbətimizdən kiçik bir hissəni qələmə almağa çalışdıq.

✍ **Səbuhi HƏSƏNOV**

## Beynəlxalq impaktfaktorlu jurnallarla əlaqələr genişlənir

AMEA Naxçıvan Bölməsinin Batabat Astrofizika Rəsədxanasının Səma cisimlərinin fotometriyası şöbəsinin müdiri, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Azad Məmmədlinin “Sankt-Peterburq Universitetinin xəbərləri” jurnalının “Riyaziyyat, mexanika, astronomiya” seriyasının ikinci sayında məqaləsi çap olunub.

“Günəş sistemi ilə ulduz yaxınlaşması zamanı Yupiter orbitinin evolyusiyası haqqında” başlıqlı məqalədə Günəş sistemi ilə yaxınlaşan sınaq ulduzun Yupiter orbitinə təsiri araşdırılıb. Qeyd edək ki, əməkdaşımızın göy mexanikası sahəsindəki tədqiqatları beynəlxalq nüfuzlu jurnalın əvvəlki nəşrlərində də işıq üzü görüb.

Bundan əlavə, Londonda, Oksford Universitetində nəşr olunan “Kral Astronomiya Cəmiyyətinin aylıq xəbərləri” jurnalının ötən saylarının birində çap edilmiş “Ulduz yaxınlaşması zamanı planet hərəkətinin dayanıqlığı haqqında” adlı elmi-tədqiqat işinə çinli tədqiqatçılar Çao Liu və Şenqpinq Qonq “Elliptik məhdud dörd cisim məsələsində peykin Hill dayanıqlığı” adlı məqalələrində istinad etmiş və alınan nəticələr haqqında “Astrofizika və kosmos elmləri” nüfuzlu beynəlxalq jurnalının növbəti sayında məlumat vermişlər.

Qeyd edək ki, sözügedən elmi məqalə orijinal astronomik tədqiqatların nəticələrinin dərc olunduğu və dünyanın bu sahədə nüfuzlu impaktfaktorlu nəşri sayılan “Amerika astronomiya və astrofizika jurnalı”nın redaksiya heyəti tərəfindən yüksək qiymətləndirilib və bununla bağlı redaksiya idarəsinin katibi Cessi Rayt tərəfindən müəllifə məktub göndərilib. Məktubda tədqiqat işinin nəticələrinin aktuallığı, yeniliyi və mümkün tətbiq sahələrinin genişliyi nəzərə alınaraq Azad Məmmədliyə bu istiqamətdə tədqiqat işinin davam edilməsi tövsiyə olunub və ona jurnalın redaksiya heyətinə üzv və nəşrin rəyçisi olmaq təklif edilib.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Peşəyönümü məşğələləri təşkil olunub

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın həyata keçirilməsi üzrə Tədbirlər Planında ümumtəhsil məktəblərində yuxarı sinif şagirdlərinin peşə seçiminə köməklik məqsədilə onlara tədris müddəti ərzində əmək bazarının tələbinə uyğun peşə və ixtisaslar barədə məlumatların verilməsi nəzərdə tutulub. Qeyd edək ki, 2017-2018-ci tədris ilində 4347 yuxarı sinif şagirdinə peşə seçimində köməklik məqsədilə əmək bazarının tələbinə uyğun peşə və ixtisaslar barədə məsləhət xarakterli məlumatlar verilib.

Həmçinin 2017-2018-ci tədris ilinin sonunda ümumtəhsil məktəblərində 9-cu sinfi başa vuraraq məktəbin 10-cu sinfinə qəbul olunmayan 324 şagirdlə əlaqə saxlanılaraq onlara peşə kursları barədə ətraflı məlumatlar verilib və əmək bazarının tələbinə uyğun kurslarda təhsil almaları təklif olunub.

Verilən tapşırığın icrasına uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi və Təhsil nazirlikləri tərəfindən 9, 10 və 11-ci sinif şagirdlərinin təhsil aldığı məktəblərdə təşkil ediləcək peşəyönümü məşğələlərinin qrafiki təsdiq olunub və 2018-2019-cu tədris ili üçün müvafiq olaraq məşğələlərə başlanılıb.

Şagirdlərə Əmək və Əhalinin Sosial Müdafiəsi və Təhsil nazirliklərinin əməkdaşları tərəfindən əmək bazarında tələb olunan peşə və ixtisaslar barədə məsləhət xarakterli məlumatlar verilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*Tarix hər zaman sübut edib ki, yeddiaylıq doğulan insanlar müxtəlif sahələrdə başqalarının qazana bilmədikləri uğurlara imza atır, həyatda böyük iz qoyurlar. İdmanda da beləlləri yüzlərlədir. Məsələn, idmanın ağır atletika növü haqqında danışarkən, hər zaman mükəmməl göstəriciləri və nailiyyətləri ilə diqqətləri özünə çəkən türk idmançı Halil Mutlu yada düşür. Soyadına sadiq qalaraq Türk dünyasını hər zaman xoşbəxt edən ağır atletin davamçıları artıq idman arenasında öz sözlərini deməkdədirlər. Qürur hissi ilə deyə bilərik ki, Naxçıvan idman məktəbinin yetirməsi, prinsipiallığı və idmançı əzmi ilə həmkarlarına nümunə olan Tərmenxan Babayev də ağır atletika sahəsində əhəmiyyətli uğurları ilə artıq özünü təsdiq etmiş, gələcəyi daha böyük ümidlər doğuran idmançılarımızdandır.*

# Məsuliyyət və cəsarət tələb edən idman növləri

## *Şərur rayon ağır atletika bölməsindən reportaj*





### *İdmançı uşaqlar üçün hərtərəfli şərait yaradılıb*

İndi hamı üçün bir məqam maraqlıdır: Avropa və dünyanı fəth edən idmançımızın yetişdiyi zal. Bəli, Tərmenxanı qələbələrə aparan yol bu zaldan start götürüb. O, saatlarla burada məşq edib, məşqçisindən bu idman növünün sirlərini öyrənib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində fəaliyyət göstərən Şərur rayon ağır atletika bölməsinə getməkdə də məqsədimiz həmin ünvanda aparılan məşqləri izləmək, gənc idmançılarla həmsöhbət olmaq idi.

Əvvəlcə onu deyək ki, bu zal muxtar respublikadakı digər belə ünvanlardan fərqlənmir. Yəni bu gün diyarımızda idmanın inkişafı üçün hər bir idman obyektində müasir şərait yaradılıb. Məşqlərə bacarıqlı mütəxəssislər cəlb edilib. Gələcəyimiz olan gənclərin sağlam böyüməsi, qədim yurd yerimizdə bacarıqlı idmançıların yetişdirilməsi diqqət mərkəzində saxlanılıb.

Bu da həmin ünvan... Kürəklərində idman çantaları olan uşaq, yeniyetmə və gənclər diqqətdən yayınmır. İçəri daxil olarkən fikirlərimiz haçalanır: çöldə gözləyən uşaqlar zalda tam fərqli görünürlər. Zalda bizi qarşılayan məşqçi-müəllim Şəfi Hüseynov təəccübümüzü anlayıb sözə başlayır: "İndi hər şey fərqlidir, elə deyilmi? Ötən illərlə müqayisədə Naxçıvanımızda idmana maraq köklü surətdə dəyişib. Sizin də gördüyünüz kimi səbəbi yaradılan şəraitdir: istilik, məşqlərdən sonra uşaqların yuyunması üçün isti suyumuz da var (gülür). İdmanla məşğul olanlar, adətən, bunları istəyirlər. Gördüyünüz uşaqlar (əli ilə uşaqları göstərir) üçün nə lazımdır: ciddi məşqlər etmək, sağlam böyümək və muxtar respublika idmanına öz töhfələrini vermək".

Şəfi Hüseynov söhbətinə bu növün faydaları haqqında danışmaqla davam edir: "Hər zaman zala gələn uşaqlara deyirəm ki, hansı növlə məşğul olursunuzsa olun, bilin ki, idman orqanizmi xəstəliklərdən qoruyur, insanı sağlam saxlayır, bədəni daha da möhkəmləndirir. Həmçinin idmanla məşğul olarkən kalori itirir və artıq çəkilərdən xilas olursunuz. Bir məşqçi kimi insanları bu sahəyə cəlb etmək üçün müəyyən addımlar atırıq, təbliğat aparırıq. Çünki bu gənclər bizim gələcəyimizdir".

### *Gələcəyin ağır atletləri məşqlərə ara vermirlər*

Söhbətimizə bir qədər ara verib məşqləri izləyirik. Xüsusilə Şəfi Hüseynovun 4 azyaşlı uşaqla daha yaxından maraqlanması diqqətimizi çəkir. Bunun fərqinə varan məşqçi "bunlar gələcəyin Avropa və dünya çempionlarıdır. Tərmenxan Babayevdə söz verdiyim kimi, yenə söz verirəm, bunlar 2022-ci ildəki olimpiya oyunlarında Azərbaycanı təmsil edəcəklər", – deyərək əlini iki uşağın çiyninə qoyur. Fürsətdən istifadə edib



onların – Həsən Babayev və Nihat Ramazanovun fikirlərini öyrənirəm. Həsən 2 ildən çoxdur ki, bu zalda məşq edir: "11 yaşım var və iki il yarımdır ki, bu idman növü ilə məşğulam. Bu müddət ərzində iki dəfə Azərbaycan çempionu olmuşam. Məqsədim nailiyyətlərimi artırmaq və daha böyük yarışlarda iştirak etməkdir. Bunun üçün məşqlərə hər gün ara vermədən davam edirəm. Bəzən yarışlarda çatışmayan cəhətlərim olur ki, onların üzərində daha çox çalışır və məşqçimin dediklərini vaxtında yerinə yetirirəm. Bizim üçün hər bir şərait yaradılıb. Bundan sonra da çalışacağam ki, mütəmadi olaraq milli komandaya dəvət alım və Naxçıvanı beynəlxalq arenalarda layiqincə təmsil edim".

Nihat Ramazanov isə 1 ilə yaxındır, bu idman növü ilə məşğuldur. Məşqçinin fikrincə, Nihat böyük potensiala malikdir və gələcəkdə Azərbaycanın ən güclü atletlərindən biri ola bilər. Elə 10 yaşlı İlkin Kərimov da bölmənin istedadlı üzvlərindəndir.

Azərbaycanın 14 yaşlılardan ibarət milli komandasının üzvü Gülcahan Əliyeva hazırda ölkənin ən istedadlı ağır atletlərindən biri hesab edilir. İdmançımız qazandığı uğurların əsas səbəbini düzgün aparılan məşq prosesində görür: "Əvvəllər məndə belə bir fikir formalaşmışdı ki, idmanla ancaq kişilər məşğul olmalıdır. Sonra gördüm ki, elə deyil, qızlar da idmanın müxtəlif sahələri ilə məşğul olur və uğur qazanırlar. Mən də ağır atletikanı seçdim. Ağır atletika elə bir növdür ki, körpücük üzərinə çıxarkən hər şeyi unutmalısan və diqqətini bir istiqamətə yönəltməlisən. Məşqçilərimiz ilk olaraq bizə bunu aşılayırlar. Mən də yarışlarda milli komandaya üzv olmaq üçün bütün gücümü qoyuram. Artıq bir ildən çoxdur ki, ağır atletika ilə məşğul oluram və 48 kiloqram çəki dərəcəsində Azərbaycan çempionu və mükafatçısı olmuşam. Məqsədim bizim üçün yaradılan şəraitdən maksimum istifadə edib daha böyük nailiyyətlərə sahib olmaqdır".

İkiqat Avropa çempionu, Yeniyetmələrin III Yay Olimpiya Oyunlarının gümüş mükafatçısı Tərmenxan Babayev isə yorulmadan məşqlərinə davam edir: "Bu zal mənim ikinci evimdir. Ştanq oxu, müxtəlif çəkidə olan daşlar, alətlər mənə elə doğmadır ki...Özümü burada çox rahat hiss edirəm və yorulmadan məşqlərimi davam etdirirəm. Çalışdığım qədər məşqlərimin vaxtını artırıram. Adətən, yarışlardan öncə milli komandanın bazasında təlim-məşq toplanışları olur. Toplanışlara hazırlıqlı vəziyyətdə getməyə çalışıram. Heç vaxt qazandığım uğurlarla öyünməmişəm, yalnız bir məqsədim olub: irəli getmək və Naxçıvana bacardığım qədər medalla qayıtmaq. Qarşıdakı yarışlara daha ciddi hazırlıqlar gedir. Əziyyətimizin bəhrəsi qazandığımız uğurlardadır".

### *Pauerliftinq həvəskarları*

Hazırda Şərur rayon bölməsində ağır atletika ilə yanaşı, pauerliftinq idman növü üzrə də məşqlər aparılır. Məşqçi-müəllim Şəfi Hüseynov deyir ki, ağır atletika ilə 20, pauerliftinqlə isə 15 uşaq məşğul olur: "Pauerliftinq hərəkətlərinin yerinə yetirilmə qaydaları var. Biz uşaqlara daha çox onları öyrətməyə və düzgün istiqamətləndirməyə çalışırıq. Məşğul olduğum gənclərin yüksək göstəricilər qazanacaqlarına əminəm. Gənclər və İdman Nazirliyi tərəfindən bu idman növünə ciddi dəstək verilir. İstər ağır atletika, istərsə də pauerliftinqin xüsusi özəlliyi ondadır ki, bu idman növü hər cür vəziyyətlərdə uşaqlara sərbəst qərar verməyi öyrədir. Sizin vasitənizlə, 2006-2009-cu illər təvəllüdlü uşaqları məşqlərimizə təmənnasız dəvət edirik".

Pauerliftinq üzrə ikiqat Azərbaycan çempionu, dəfələrlə ölkə birinciliyi və turnirlərinin mükafatçısı Məcid Məmmədov da bu zalın yetirmələrindəndir. 22 yaşlı idmançımız 3 ilə yaxındır bu növlə məşğuldur: "Məşqlərimə ara vermədən davam edirəm və qarşıdakı aylarda keçiriləcək yarışlara hazırlaşıram. Bəzən mənim istirahət edib-etmədiyimi soruşurlar, cavabım isə "mənim məşqim elə mənim istirahətimdir", – deyirəm (gülür). Əgər peşəkar idmançı olmaq istəyirsənsə, məşqlərə ciddi yanaşmaq lazımdır. Bundan sonra uğurun özü "gəlib səni tapacaq".

*Göründüyü kimi, muxtar respublikamızda idmanın müxtəlif sahələrinə maraq gündən-günə artmaqdadır. Səbəbi isə yaradılan idman infrastrukturu və idmançılara göstərilən dövlət qayğısıdır. Belə zallar bundan sonra da böyük idmançılar yetişdirəcək və qazanılan uğurlar Naxçıvanın idman tarixinə qızıl hərflərlə yazılacaq. 7 aylığında dünyaya göz açan, bu gün 16 yaşı olan Tərmenxan Babayevin uğuru kimi...*

✍ **Ceyhun MƏMMƏDOV**

# Növbə çəpgöz dovşana çatıb

*"İki acgöz ayı balası yağlı, iri bir pendir tapır. Amma heç cür onu bölə bilmirlər. Qorxurlar ki, birinə az, o birinə çox düşər. Bir tülkü onlara yaxınlaşıb deyir:*

*– Verin, mən bölüm.*

*Tülkü pendiri bərabər olmayan iki hissəyə bölür. Ayı balaları o saat qışqırırlar:*

*– Biri o birindən böyükdür!*

*Tülkü onları sakitləşdirir:*

*– Dayanın, bu saat tən yarı bölərəm.*

*O, böyük hissədən bir parça dişləyib yeyir, ancaq bu dəfə həmin hissə o birindən kiçik olur.*

*O, yenə böyük pendir tikəsini dişləyir. Ayı balaları bu dəfə də narazı qalırlar. Tülkü pendiri hey dişləyir. Tülkü nə qədər "çalışırsa", bir hissə o birindən böyük alınır. Ta o vaxta kimi ki tülkü qarnını doyurur. İndi artıq pendir parçaları eyni idilər. Amma onlar necə də balaca olmuşdular!*

*Ayı balaları öz paylarını aldılar və acıqlarından ağlamağa başladılar: ac ayı balaları bu pendirlə necə doysun?*

*Nə olsun ki?– dedi qaçaraq uzaqlaşan tülkü. Əvəzində tən yarıdır!"*



Gümrüdə yaşayan ermənilər

Bu ibrətamiz xalq nağılında, əslində, dərin bir fəlsəfə də var: Özünün olanı qoruyub ondan lazımınca faydalanmayanda sənə kələk gəlib çörəyini əlindən alırlar. İşğalçı Ermənistan əhalisinin son 30 ildə düşdüyü vəziyyət də buna oxşayır. Hakimiyyət bir klandan başqa bir klana keçir, yeni prezidentlər, baş nazirlər, nazirlər gəlib hərəsi öz "şələsini" tutub gedir, ac-yalavac sadə kütlələr isə pendirin nə zamansa ədalətlə bölünəcəyi eyforiyası ilə ömürlərini çürüdürlər.

Azərbaycan torpaqlarının 20 faizini işğal etməklə 20-ci əsrdəki səhvlərindən daha birini edən ermənilər indi böyük beynəlxalq enerji və iqtisadi layihələrdən də təcrid olunublar.

Regionun əsas güc mərkəzi olan Türkiyə və Azərbaycanla sərhədlər bağlıdı. Rusiya ilə isə ümumiyyətlə, quru sərhədi yoxdu. Gürcüstanla yeganə quru yolu olan Yuxarı Lars sərhəd-keçid məntəqəsi isə hər il payız fəslində xəzana düçar olur.



Gümrüdə yaşayan ermənilər

Budur, yenə də ötən həftə dağlıq ərazilərə yağan qar Larsı "vurub". Sürücü və yükdaşıyan şirkətlərin etirazları isə aləmi götürüb. Çünki əsas daşımalar iflic olduğundan ciblər də boş qalır. Payızda yığılan məhsullar nə Gürcüstan, nə də ki Rusiya bazarlarına çatdırıla bilmir. Qarın-soyuğun əziyyətini aztəminatlı təbəqə artıqlaması ilə çəkir.

İndi Ermənistanda, demək olar ki, hamı hökumət əleyhinə etiraz aksiyalarında öz vaxtını "öldürür". Axşam ac yatırlar, səhər obaşdan durub dövlət binalarının qarşısında, yollarda, küçələrdə iş, çörək, istilik tələb edirlər. 30 il əvvəl quyuya atılan işğalçılıq adlı daşı indi heç kim quyudan çıxara bilmir. Etirazçıların da rəngi müxtəlifdi: tələbələr, müəllimlər, alimlər, mədən işçiləri, pensiyaçılar, ekoloqlar, sadə kəndlilər, nə bilim, divardan aşandan küçədə gecələyənə qədər…

Bir sözlə, artıq bu ölkədə etirazlar vərdişə çevrilib. Kəndlər isə tamam boşalır. Çünki iş və dolanışıq yoxdu. Kənd təsərrüfatı dizə qədər çamıra quylanıb. Məsələn, Naxçıvanla sərhəd olan Arazdəyən, Areni, Xaçik, Almalı, Yelpin kimi kəndlərdə əsas iş yeri müqaviləli hərbi xidmətdir. Əsgər çatışmadığından postlara qoca-qoca kişiləri çıxarırlar. İndi pullar vaxtlı-vaxtında verilmədiyindən qocalmış "maxe"lər də etirazlara başlayıblar.

Dünən Naxçıvan televiziyasında izlədim ki, nəhayət, İrəvan zooparkının əməkdaşları da "qeyrətə gəlib" tətil ediblər. Səbəb güzəransızlıq və heyvanların yem çatışmazlığından tələf olmasıdır. Heyvanlar aclıq və xəstəlikdən qırılır. Sonuncu dəfə dəyəri 800 min dram olan maral öz ömrünü Sarkisyana bağışlayıb. Bir nağılda deyildiyi kimi, deyəsən, növbə yavaş-yavaş çəpgöz dovşana çatır.

Qısası, işğalçı ölkədə indi hamı ayağa qalxıb piket və aksiya keçirir. Ac qılınca çapar məsələsi kimi. Bir aksiya keçirməyən heyvanxana işçiləri qalmışdı, onlar da maral və dovşanla gündəmə gəldilər. Bu oyunbazlıqların da adını qoyublar demokratiya, söz və sərbəst toplaşmaq azadlığı. Acqarına, lüt bədənə demokratiya nətəri olur, mən hələ onu başa düşə bilməmişəm. Gəlin hərəmiz min dəfə demokratiya deyək, baxaq görək, cibimizə neçə manat girəcək…

Əslində isə bu ölkədə baş verənlər xaosdu, hərcmərclikdi, anarxiyadı, işğalçılıq faktorundan doğan dərin iqtisadi tənəzzüldü. Bir sözlə, hələ də sonu görünməyən dərin bir bataqlıqdı.



Gümrüdə yaşayan ermənilər

…Bəzən düşünürəm ki, yəqin, bu ölkədə ağıllı bir adam yoxdu. Ən azı çıxıb desin ki, bizi bu günə qoyan Xocalıda əli günahsız insanların qanına bulaşmış hərbi-xunta rejimi, Azərbaycana qarşı əsassız torpaq iddiaları və işğaldı! Bundan əl çəkin! Qoyun biz də bu gözəl dünyada bir gün belə adam kimi yaşayaq…

Həə, görünür ki, yoxdu.

Onda qoy pendiri yenə də tülkülər bölsünlər…

**Sahil TAHİRLİ**
*jurnalist*


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 847